# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

Bakı şəhəri № 232/4 5 iyun 2012-ci il

“Auditor təşkilatlarının və sərbəst auditorların reytinq

səviyyəsinin müəyyən edilməsi haqqında” Qayda barədə

Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - “Auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi haqqında Qayda barədə” 1.4.1-ci və 12-ci müvafiq bəndlərinin icrası ilə əlaqədar sədrin elmi-metodiki məsələlər üzrə müşaviri N.Talıbovun Qayda layinəsinin hazırlanması barədə məlumatını, bu məsələyə dair Şura üzvlərinin əlavə və təkliflərini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Sədrin elmi-metodiki məsələlər üzrə müşaviri N.Talıbovun “Auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi haqqında” Qayda layihəsinin hazırlanması barədə məlumatı nəzərə alınsın (əlavə olunur).

2. Sədrin elmi-metodiki məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, cari lin iyun ayının sonunadək “Auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi haqqında” Qayda layihəsinə dair Şura üzvlərinin əlavə və təklifləri nəzərə alınmaqla bu layihəni yenidən işləyib Şurada baxılmaq üçün təqdim etsin.

3. Aparatın rəhbəri Q.Bayramova tapşırılsın ki, “Auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi haqqında” Qaydanın yeni layihəsinin Palatanın internet saytında yerləşdirilməsini təmin etsin.

4. Sədrin elmi-metodiki məsələlər üzrə müşaviri N.Talıbova, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, cari ilin iyul ayında sərbəst auditorlar və auditor təşkilatlarının rəhbərlərinin iştirakı ilə “Auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi haqqında” Qaydanın müzəkirəsi ilə bağlı seminarın keçirilməsini təşkil etsinlər.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**